***MƏKTƏBƏQƏDƏR TƏHSİL***
***PRESCHOOL EDUCATION***
***ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ***

*UOT 373.21*

***Gülxar Hidayət qızı Quliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının müəllimi*
*https://orcid.org/0009-0005-8970-5035*
*E-mail: Gulkharguliyeva@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).137-141*

# MƏKTƏB TƏLİMİNƏ HAZIRLIQ DÖVRÜNDƏ UŞAQLARIN ESTETİK – YARADICI İNKİŞAFI

***Gulhar Hidayat Kulieva***
*lecturer at the department of Preschool education pedagogy of the*
*Azerbaijan State Pedagogical University*

# AESTHETIC CREATIVE DEVELOPMENT OF CHILDREN DURING THE PERIOD OF PREPARATION FOR SCHOOL EDUCATION

***Гюльхар Хидаят гызы Гулиева***
*преподаватель кафедры Педагогики дошкольного образования*
*Азербайджанского Государственного Педагогического Университета*

# ЭСТЕТИКО-ТВОРЧЕСКОЕ РАЗВИТИЕ ДЕТЕЙ В ПЕРИОД ПОДГОТОВКИ К ШКОЛЬНОМУ ОБУЧЕНИЮ

**Xülasə.** Estetik-yaradıcı inkişaf məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin edir. Uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Təsviri fəaliyyət məşğələləri kiçikyaşlı uşaqların estetik tərbiyəsinin imkanlarını artırır. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşməsi, quraşdırma prosesində müxtəlif modellərin qurulması, yeni hekayə və nağılın, musiqi fəaliyyətində sadə melodiyanın dinlənilməsi, mahnının və uşaq musiqi alətlərində ifa məktəbəqədər yaşlı uşaqların estetik inkişafına kömək edir. Uşaqlarda ətraf aləmin gözəlliklərini düzgün qiymətləndirmək bacarığı və ətraf aləmə müsbət emosional münasibət formalaşmağa başlayır.
***Açar sözlər:*** *məktəbəqədər dövr, estetik-yaradıcı inkişaf, ətraf aləmin gözəllikləri, təsviri fəaliyyət, uşaq şəxsiyyəti, əməkdaşlıq*

**Abstract.** Aesthetic-creative development ensures the development of artistic feelings and taste, artistic creativity abilities, the ability to observe and discuss objects in the surrounding world in preschool children. The aesthetic development of children stimulates their creative abilities. Visual activity classes increase the possibilities of aesthetic education of young children. In visual activity, new combinations of colors and shapes, the construction of various models in the assembly process, listening to a new story and fairy tale, simple melodies in musical activity, playing songs and children's musical instruments contribute to the aesthetic development of preschool children. The ability to correctly assess the beauty of the surrounding world and a positive emotional attitude towards the surrounding world begin to form in children.
***Key words:*** *preschool period, aesthetic-creative development, the beauties of the surrounding world, pictorial activity, child personality, cooperation*

**Аннотация.** Эстетико-творческое развитие обеспечивает развитие у детей дошкольного возраста художественных чувств и вкуса, способностей к творчеству, умения наблюдать и обсуждать объекты окружающего мира. Эстетическое развитие детей стимулирует их творческие способности. Занятия изобразительной деятельностью расширяют возможности эстетического воспитания детей млад-

шего возраста. В изобразительной деятельности новые сочетания цветов и форм, создание различных моделей в процессе конструирования, сочинение новых рассказов и сказок, в музыкальной деятельности – прослушивание простых мелодий, исполнение песен и игра на детских музыкальных инструментах способствуют эстетическому развитию детей дошкольного возраста. У детей начинает формироваться умение правильно оценивать красоту окружающего мира и положительное эмоциональное отношение к нему.

***Ключевые слова***: *дошкольный период, эстетико-творческое развитие, красоты окружающего мира, изобразительная деятельность, личность ребенка, сотрудничество*

## Giriş

Müasir təhsil sistemində uşağın məktəb təliminə hazırlıq dövründə yalnız intellektual deyil, eyni zamanda estetik və yaradıcı potensialının inkişafı baxımından həlledici mərhələ hesab olunur. Estetik-yaradıcı inkişaf uşağın emosional dünyasının zənginləşməsinə, təxəyyülünün, fantaziyasının və bədii zövqünün formalaşmasına şərait yaradır.

Estetik inkişaf şəxsiyyətin formalaşmasında mühüm yer tutan çoxşaxəli pedaqoji prosesdir. Estetika anlayışı gözəlliyin dərk olunması, ona emosional münasibət və estetik zövqün formalaşması ilə bağlıdır. Pedaqoji baxımdan estetik inkişaf uşağın ətraf aləmdəki hadisə və obyektlərin gözəlliyini hiss etməsi, qiymətləndirməsi və ona yaradıcı münasibət göstərməsi kimi xarakterizə olunur.

Məktəb təliminə hazırlıq dövründə estetik inkişaf uşağın emosional dünyasının zənginləşməsinə, hiss və duyğularının incəlməsinə şərait yaradır. Bu mərhələdə uşaq rənglərə, formalara, səslərə, ritmə və bədii obrazlara qarşı xüsusi həssaslıq nümayiş etdirir. Estetik qavrayışın formalaşması uşağın dünyanı bütöv və obrazlı dərk etməsinə imkan verir.

Estetik inkişaf yalnız gözəlliyi duymaq deyil, həm də onu yaratmaq bacarığının formalaşmasını nəzərdə tutur. Bu baxımdan estetik tərbiyə uşağın yaradıcılıq fəaliyyətinə cəlb olunması ilə sıx bağlıdır. Rəsm, musiqi, bədii söz, oyun və əmək fəaliyyəti estetik inkişafın əsas vasitələri hesab olunur.

Yaradıcı inkişaf uşağın təxəyyülünün, fantaziyasının, müstəqil düşünmə və orijinal ideyalar irəli sürmə qabiliyyətinin inkişafını əhatə edir. Psixoloji-pedaqoji tədqiqatlarda yaradıcılıq uşağın idraki fəallığının ən yüksək təzahür formalarından biri kimi qiymətləndirilir.

Məktəbə təliminə hazırlıq dövründə uşaqların yaradıcı fəaliyyəti əsasən oyun, təsviri və bədii fəaliyyət vasitəsilə reallaşır. Bu yaş mərhələsində uşaq hazır nümunəni təkrarlamaqdan daha çox, öz təsəvvürlərinə əsaslanaraq yeni obrazlar yaratmağa çalışır. Bu isə onun şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Yaradıcı inkişaf uşağın:

- özünüifadə imkanlarını genişləndirir;
- müstəqil qərarvermə bacarığını formalaşdırır;
- təşəbbüskarlıq və özünə inam hissini artırır;
- emosional və sosial adaptasiyasını asanlaşdırır.

Beləliklə, yaradıcı inkişaf uşağın yalnız intellektual deyil, həm də emosional və sosial inkişafına kompleks təsir göstərir.

Məktəb təliminə hazırlıq dövrü (əsasən 5-6 yaş) uşağın həyatında yeni sosial rolun – şagird rolunun formalaşdığı əsas mərhələdir. Bu mərhələdə estetik-yaradıcı inkişaf uşağın məktəb mühitinə uyğunlaşmasında mühüm əhəmiyyət kəsb edir.

Estetik-yaradıcı fəaliyyətlər uşağın:

- diqqət və yaddaşını inkişaf etdirir;
- təfəkkür və təxəyyülünü zənginləşdirir;
- nitq və ünsiyyət bacarıqlarını möhkəmləndirir;
- emosional gərginliyi azaldır.

Estetik-yaradıcı inkişaf eyni zamanda uşağın məktəb təliminə psixoloji hazırlığının mühüm göstəricilərindən biri hesab olunur. Yaradıcılıqla məşğul olan uşaq təlim fəaliyyətinə daha maraqla yanaşır, tapşırıqları çox həvəslə yerinə yetirir və onda özünəinam hissi formalaşır.

Psixoloji-pedaqoji tədqiqatlarda yaradıcılıq uşağın idraki fəallığının ən yüksək təzahür formalarından biri kimi qiymətləndirilir. Yaradıcı inkişaf uşağın yalnız intellektual deyil, həm də emosional və sosial inkişafına kompleks təsir göstərir.

Məktəb təliminə hazırlıq dövründə uşaqların yaradıcı fəaliyyəti əsasən oyun, təsviri və bədii fəaliyyət vasitəsilə reallaşır. Bu yaş mərhələsində uşaq hazır nümunəni təkrarlamaqdan daha çox, öz təsəvvürlərinə əsaslanaraq yeni obrazlar yaratmağa çalışır. Bu isə onun şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

"Həyata, gerçəkliyə estetik münasibəti daha dolğun ifadə edən ədəbiyyat və incəsənət böyük idraki təsir qüvvəsinə malik olub, xalq kütlələrini həyatda və məişətdə gözəlliklər yaratmağa və bu yaradıcılıq prosesində hərtərəfli inkişaf edərək gözəl mənəvi-əxlaqi keyfiyyətlərə malik olmağa sövq edir" [10,59 s.].

Pedaqoq S.A. Smirnovun redaktəsi ilə çap edilmiş ali məktəb tələbələri üçün "Pedaqogika"[9,157] dərsliyində o, uşağın məktəbə hazırlanması üçün məktəbəqədər müəssisələrdə inkişafetdirici mühitin yaradılmasına geniş yer vermiş və uşağın inkişaf mühitinin yaradılmasını tələb edir. İnkişaf mühiti kompleksinə aşağıdakıları daxil edir: maddi-texniki şərait, sanitar-gigiyenik şərait, psixoloji-pedaqoji şərait, sanitar-gigiyenik şərait, erqonomik şərait, estetik şərait.

F.Frebel uşaqların estetik tərbiyəsinin inkişafı üçün rəsm, musiqi, yapma, nəğmə, təbiətdə əmək və s. məşğələləri vacib sayırdı. Bu məşğələlər vasitəsilə uşaqda sadəcə estetik deyil, həm də fiziki, əqli, əxlaqi qabiliyyətlər inkişaf etdirilir.

Ümumiyyətlə, estetik tərbiyə məktəbəqədər yaşlı uşaqlarda estetik hisslərin, zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarıqlarının inkişafını təmin edir. Estetik tərbiyə, həmçinin uşaqlarda təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimində gözəllikləri görmək bacarığını inkişaf etdirir və yaradıcı qabiliyyətlərinin formalaşmasına (musiqi duyumu, təsviri fəaliyyət və s.) şərait yaradır.

Təsviri fəaliyyət məşğələlərində istinad olunan rəsm, yapma, applikasiya məşğələlərinin hər birinin uşaqların bədii-estetik tərbiyəsində müəyyən rolu və əhəmiyyəti vardır. Bu məşğələlərdə kiçik yaşlı uşaqların estetik tərbiyəsini daha səmərəli şəkildə inkişaf etdirmək üçün ayrı-ayrı məşğələ növlərinin bədii estetik mahiyyətinə də xüsusi diqqət yetirilməlidir.

Təsadüfi deyil ki, "Azərbaycan Respublikasının Məktəbəqədər təhsilin proqramında (kurikulumunda)" [1] həmin məsələlərə xüsusi diqqət yetirilmişdir. Hər bir məktəbəqədər təhsil müəssisələrində təsviri incəsənətə maraq və tələbatın inkişaf etdirilməsi öz növbəsində təsviri fəaliyyət məşğələlərində kiçikyaşlı uşaqların estetik tərbiyəsinin imkanlarını artırır. Bu imkanlar nəzəri və praktik istiqamətinə görə diqqəti cəlb edir.

Məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafı müxtəlif fəaliyyət növləri vasitəsilə məqsədyönlü şəkildə təşkil olunur. Bu fəaliyyətlər uşağın yaş xüsusiyyətlərinə, maraq və ehtiyaclarına uyğun olaraq seçilir və inteqrativ xarakter daşıyır.

"…Əgər uşaqlıq illərində adam düzgün estetik istiqamət götürmürsə, əgər bədii zövqü-incəsənəti qavramaq, ayrı-ayrı hallara, həyat hadisələrinə, əşyalara onların estetik keyfiyyətləri baxımından qiymət vermək qabiliyyəti inkişaf etdirilmirsə, bir qayda olaraq bu, mənəvi yoxsulluğa gətirib çıxarır, gözəllik haqqında yanlış, təsadüfi təsəvvürlərin, pis zövqün yaranmasına səbəb olur" [5, s. 155].

Məktəbəqədər yaşlı uşaqların estetik inkişafı onların yaradıcılıq qabiliyyətlərini stimullaşdırır. Təsviri fəaliyyətdə rənglər və formaların yeni birləşmələri, quraşdırma prosesində müxtəlif modellərin qurulması, hekayə və nağılın, musiqi fəaliyyətində melodiyanın dinlənilməsi, mahnı oxumaq və uşaq musiqi alətlərində ifa, rəqslərin öyrənilməsi məktəbəqədər yaşlı uşaqların estetik zövqünün inkişafına kömək edir.

**Təsviri fəaliyyət** estetik-yaradıcı inkişafın aparıcı istiqamətlərindən biridir. Rəsm, aplikasiya, kollaj, plastilin və gil ilə modelləşdirmə uşağın estetik qavrayışını, rəng və forma duyumunu, həmçinin xırda motorikasını inkişaf etdirir. Uşaq bu fəaliyyət zamanı öz daxili hiss və düşüncələrini sərbəst şəkildə ifadə edir.

Tanınmış metodist alim N.A. Qoryayeva yazır: "Təsviri incəsənət dərsi – bu, xüsusi bir dərsdir. Bu dərsə verilən tələblər də xüsusi səciyyə daşıyır. Bu dərs incəsənət qanunları əsasında qurulmalıdır. Bu tələbdən də bir sıra xüsusiyyətlər, məna tərzləri meydana çıxır. Təsviri incəsənət dərsləri, hər şeydən əvvəl, mənəvi-estetik tərbiyə vəzifələrini yerinə yetirməlidir"[6, s. 112].

Təsviri fəaliyyət məşğələlərinin estetik-emosional əsaslarda aparılması, öz növbəsində, kiçik yaşlı uşaqların şəxsiyyətinin zən ginləşdirilməsinə zəmin yaradır. Buna görə də müxtəlif vasitələrdən istifadə etməklə uşağın şəxsiyyətinin hərtərəfli inkişafına nail olmaq xüsusilə diqqət mərkəzindədir.

**Musiqi fəaliyyəti** uşaqlarda ritm hissinin, musiqi zövqünün və emosional həssaslığın formalaşmasına kömək edir. Mahnı oxuma, musiqini dinləmə, ritmik hərəkətlər və sadə musiqi alətlərindən istifadə uşağın estetik təcrübəsini zənginləşdirir.

V.A.Suxomlinski qeyd edir ki, "Musiqi tərbiyəsindən kənarda mükəmməl əqli tərbiyə mümkün deyil" [4, s. 64].

Rəsm məşğələləri uşaqların bədii təfəkkürünün inkişafına güclü təsir göstərir. Diqqəti cəlb edən cəhətlərdən biri də odur ki, bu məşğələlərdə ən zəif uşaq belə "öz sözünü" deməyi bacarır.

Rəsm məşğələlərində uşaqlar mövzuda təsvir olunan obrazların, əşya və hadisələrin əks olunmasına xüsusi fikir verir, bədii təfəkkürün köməyi ilə öz məqsədlərinə nail olurlar. O da məlumdur ki, bədii təfəkkürü kifayət qədər inkişaf etməyən uşaq müəyyən süjeti kompozisiya baxımından əhatəli şəkildə diqqətə çatdıra bilmir.

Rəsm məşğələlərində uşaqların böyük əksəriyyəti yaradıcı fəallıq göstərməyə çalışır, mövzu ilə bağlı hər hansı bir hadisəni, obyekti sadəcə olaraq kağıza köçürmür, öz əlavələri, fantaziyaları ilə yaradıcı şəxsiyyət kimi çıxış edirlər.

Kiçikyaşlı uşaqların estetik tərbiyəsində rəsmlərin rolundan bəhs edərkən mövzuların düzgün seçilməsi üzərində də dayanmaq lazımdır.

Estetik tərbiyə həmçinin, təbiətdə, ətraf mühitdə, insanların hərəkətlərində, geyimdə gözəlliyi görmək bacarığını və yaradıcı qabiliyyətlərin formalaşmasına imkan yaradır. Yaradıcılıq şəxsiyyətin mənəvi inkişafında, insani hisslərin təkmilləşməsində mühüm rol oynayır ki, bunun da təməli erkən yaş dövründə qoyulur [2, s. 54].

Təcrübə və apardığımız müşahidələr göstərir ki, mövzuların rəngarəngliyi, maraqlı olması bu prosesdə əsas rol oynayır. Uşaqların marağına, təsviri fəaliyyət imkanlarına uyğun seçilən mövzular daha mükəmməl şəkildə işlənir, tamamlanır. Təbiət mənzərələrini, ilin fəsillərini əhatə edən mövzular uşaqlar tərəfindən böyük maraqla qarşılanır. Məktəbəqədər təhsil müəssisələrində aparılan təsviri fəaliyyət məşğələlərində uşaqların estetik tərbiyəsi üçün geniş imkanlar yaranır.

Rəsm məşğələləri uşaqlarda dərin duyğular və hisslər oyadır. Məsələn, hər hansısa bir təsvir olunmuş mənzərə özündə təbiətin estetik gözəlliklərini göstərməklə bərabər, həm də müəyyən təbiət hadisələrini də əks etdirir. Bu da uşaqları düşünməyə sövq edir.

**Bədii söz və ədəbiyyat** estetik-yaradıcı inkişafın mühüm vasitələrindəndir. Nağıl, şeir və hekayələrin dinlənilməsi, onların məzmununun müzakirəsi və səhnələşdirilməsi uşağın təxəyyülünü, nitqini və obrazlı düşünməsini inkişaf etdirir.

**Oyun fəaliyyəti**, xüsusilə rollu və yaradıcı oyunlar uşağın estetik-yaradıcı potensialının üzə çıxarılmasında xüsusi rol oynayır. Oyun zamanı uşaq müxtəlif sosial rolları mənimsəyir, hadisələri yenidən canlandırır və improvizasiya edir.

Məktəbə hazırlıq dövründə müəllim uşaqların estetik-yaradıcı inkişafının təşkilatçısı və istiqamətləndiricisi kimi çıxış edir. Müəllimin əsas vəzifəsi uşaqlar üçün *yaradıcılıq azadlığına əsaslanan inkişafetdirici mühit* yaratmaqdır.

Müəllim:

- uşaqların yaradıcı təşəbbüslərini dəstəkləməli;
- hazır nümunələrin mexaniki təkrarını tələb etməməli;
- uşağın fəaliyyətinə prosesyönlü qiymətləndirmə tətbiq etməlidir.

Müəllimin pedaqoji mövqeyi uşağın özünə inamının və yaradıcılıq fəallığının formalaşmasında həlledici rol oynayır. Tənqid və müqayisə əvəzinə təşviq və motivasiya üsullarından istifadə edilməsi uşağın estetik-yaradıcı inkişafını daha da gücləndirir.

Təhsilalanlarda öyrənməyə həvəs və maraq oyatmaq, onları motivasiya etmək müasir dövrdə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Başlıca məsələ bunu necə və hansı yollarla və hansı formada təşkil etməkdir ki, bu da müəllimin pedaqoji ustalıq məharətindən çox asılıdır. Görkəmli Ukrayna pedaqoqu V.A. Suxomlinski bu münasibətlə yazır: "Biliklərə həvəs qığılcımı dərsdə oyadılmalıdır: yeniyetmənin qəlbində bu qığılcımla alov yandırmaq müəllimin mədəniyyətindən asılıdır" [3, s. 18].

Estetik-yaradıcı inkişafın səmərəli təşkili üçün müəyyən pedaqoji şərtlərin təmin olunması zəruridir. Pedaqoji şərtlərə aşağıdakılar daxildir:

- estetik baxımdan zəngin və təhlükəsiz mühitin təşkili;
- fəaliyyət növlərinin inteqrasiyası;
- uşaqların fərdi xüsusiyyətlərinin nəzərə alınması;
- ailə və təhsil müəssisəsi arasında əməkdaşlıq.

Mühüm şərtlərdən biri də estetik-yaradıcı fəaliyyətlərin *sistemli və ardıcıl* şəkildə təşkil olunmasıdır. Bu fəaliyyətlər epizodik deyil, planlı şəkildə həyata keçirildikdə uşağın inkişafına daha güclü təsir göstərir.

Uşaqların estetik və yaradıcı inkişafını təmin etmək üçün aşağıdakı tələblərin gözlənilməsi məqsədəmüvafiqdir:

– yaradıcılığa həvəsləndirən *inkişafetdirici mühitin* yaradılması;

– yaradılan mühitin uşağın sərbəst fəaliyyət göstərməsinə, müxtəlif material və vasitələrdən istifadəsinə imkan verməsi;

– rəqs, musiqi, rəsm, yapma və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi;

– qiymətləndirmə bacarığının yaradılması;

– uşaqların fəal şəkildə öyrənməsi, təsəvvür etməsi və yaradıcılıq fəaliyyəti göstərməsi üçün qrup otağında şəraitin yaradılması;

– yaradıcı düşünməni asanlaşdırmaq üçün tərbiyəçinin uşaqlarla interaktiv fəaliyyətinin yaradılması;

– estetik inkişafın təmin edilməsi üçün ailələrin maarifləndirilməsi.

**Nəticə.** Məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafının pedaqoji baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu inkişaf istiqaməti uşağın şəxsiyyət kimi formalaşmasına, emosional, idraki və sosial inkişafına kompleks təsir göstərir. Estetik-yaradıcı fəaliyyətlər uşağın estetik zövqünün, təxəyyülünün, yaradıcılıq qabiliyyətlərinin və özünüifadə imkanlarının formalaşmasına şərait yaradır.

Məktəb təliminə hazırlıq dövründə estetik-yaradıcı inkişafın səmərəli təşkili üçün təsviri fəaliyyət, musiqi, bədii söz və oyun fəaliyyəti əsas vasitələr hesab olunur. Bu fəaliyyətlərin inteqrasiyalı və sistemli şəkildə təşkili uşağın məktəb təliminə psixoloji hazırlığını əhəmiyyətli dərəcədə artırır.

Müəllimin estetik-yaradıcı inkişaf prosesində rolu xüsusi əhəmiyyət kəsb edir. Müəllimin yaradıcı mühit yaratması, uşağın təşəbbüs göstərməsini dəstəkləməsi və fərdi yanaşma tətbiq etməsi bu prosesin effektivliyini təmin edən əsas pedaqoji şərtlərdəndir.

Beləliklə, məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafının düzgün təşkili onların məktəb mühitinə uyğunlaşmasını asanlaşdırır və gələcək təlim fəaliyyətində uğur qazanmalarına zəmin yaradır.

**Problemin aktuallığı.** Müasir təhsil sistemində məktəbə hazırlıq dövrü uşağın yalnız intellektual deyil, eyni zamanda estetik və yaradıcı potensialının inkişafı baxımından həlledici mərhələ hesab olunur. Estetik-yaradıcı inkişaf uşağın emosional dünyasının zənginləşməsinə, təxəyyülünün, fantaziyasının və bədii zövqünün formalaşmasına şərait yaradır. Bu baxımdan mövzunun tədqiqi pedaqoji nəzəriyyə və praktikada aktualdır.

**Problemin elmi yeniliyi.** Məktəb təliminə hazırlıq dövründə uşaqların estetik-yaradıcı inkişafının məqsədyönlü təşkili onların gələcək təlim fəaliyyətində uğurlu adaptasiyasına, yaradıcı və estetik cəhətdən inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Bu baxımdan estetik-yaradıcı inkişaf məktəbəqədər təhsil sisteminin prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

**Problemin praktik əhəmiyyəti.** Problemin məzmunundan, orada yer alan fikirlərdən pedaqoji ali məktəblərin tələbələri, habelə məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

**Ədəbiyyat**


1. Azərbaycan respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). –Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, –2014. – 96 s.
2. Həsənov, A. Məktəbəqədər pedaqogika / A. Həsənov. –Bakı: Nasir, –2000. –374s.
3. İlyasov İ.İ. Müəllim səriştəliliyi şagird şəxsiyyətinin inkişaf etdirilməsinin mühüm amili kimi // –Bakı: Təhsil İnstitutunun Elmi Əsərləri, –2024. №2, –s.16-19.
4. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. –Bakı: –1979. –64 s.
5. Salahov T.T. Dünyagörünüşün və estetik baxışların formalaşmasında təsviri incəsənətin rolu. Sovet mədəniyyəti və əmək adamının mənəvi aləmi (məqalələr məcmuəsi) –Bakı: Azərnəşr, –1982. –315 s.
6. Горяева, Н.А. Первые шаги в мире искусства / Н.А. Горяева. –М.: Просвещение, –1991. –159 с.
7. Лихачев, Б.Т. Педагогика. Курс лекций: Учебное пособие для студентов педагогических учебных заведений и слушателей ИПК и ФПК. / Б.Т. Лихачев. – М.: Прометей, Юрайт, – 1998. – 464 с.
8. Смоляр А.И., Барынкин П.П., Юрикова В.П., Слесарева Т.С. Творчество: Программа художественно-эстетического воспитания и развития детей в детском саду. – Самара: Издательство СамГПУ, –1998. –92 с.
9. Смирнова, С.А. Педагогика / С.А. Смирнова. –М.: Академия. –2001, –157с.
10. Кузнецова, Л.В. Гармоническое развитие личности младшего школьника. Книга для учителя / Л.В. Кузнецова. –М.: Просвещение, –1988. –224 с.


**Redaksiyaya daxil olub:** 11.03.2026